

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 147 (23.559)

*4 sentyabr 2020-ci il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) Bakının Yasamal rayonundakı 3 saylı tədris korpusu yenidən inşa olunaraq istifadəyə verilib.

Sentyabrın 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Murtuza Muxtarov küçəsində yerləşən yeni tədris korpusunun açılışında iştirak ediblər. Dövlətimizin başçısı və birinci xanım tədris korpusunda yaradılan şəraitlə tanış olublar.

Təhsil naziri Emin Əmrullayev və UNEC-in rektoru Ədalət Muradov Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya görülən işlər barədə məlumat veriblər. Bildirilib ki, tikintisinə 2018-ci ildən başlanılan və müasir standartlara cavab verən yeni tədris korpusu köhnə binanın fasadı saxlanılmaqla inşa edilib. Müasir kampus standartlarına cavab verən, modern memarlıq elementləri ilə zəngin olan, 4 binadan ibarət yeni tədris korpusunda texniki və texnoloji ixtisaslar üzrə 3 min tələbə təhsil ala biləcək. Binada 30 auditoriya, 6 mühazirə, 6 linqafon otağı, ən müasir texnoloji avadanlıqla təchiz olunan 14 laboratoriya, geniş idman zalı, ikimərtəbəli kitabxana, böyük və kiçik konfrans zalları var. Burada təlim-tədrisi yüksək səviyyədə aparmaq üçün hərtərəfli şərait yaradılıb.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva həmin gün Bakının Yasamal rayonundakı Vaqif Mustafazadə adına 2 nömrəli Uşaq İncəsənət Məktəbinin əsaslı təmirdən sonra açılışında da iştirak ediblər.



# Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidmətinə yeni texnika və avadanlıqlar təqdim edilib

Ümummilli liderimiz Heydər Əliyevin 1991-ci il sentyabrın 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilməsi Azərbaycanın xilasının əsasını qoymuşdur. Dahi şəxsiyyətin həmin dövrdə həyata keçirdiyi tədbirlər ölkəmizin bugünkü inkişaf və tərəqqisinə hesablanmışdır. Hazırda muxtar respublikada iqtisadiyyatın bütün sahələrində qazanılan nailiyyətlər, xüsusilə enerji təhlükəsizliyinin təmin olunması ulu öndərin uzaqgörən siyasətinin bəhrələridir. Son 25 ildə Naxçıvan Muxtar Respublikasında elektroenergetika infrastrukturu müasir tələblər səviyyəsində qurulmuş, alternativ və bərpa olunan enerji mənbələrindən səmərəli istifadə, günəş və su elektrik stansiyalarının istifadəyə verilməsi illik enerji tələbatında bu sahənin payını artırmışdır. Nəticədə, vaxtilə idxal hesabına enerji tələbatını ödəyən muxtar respublikada enerji təhlükəsizliyi tam təmin olunmuşdur.

Sentyabrın 3-də – ümummilli lider Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçildiyi gün Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidmətinə yeni texnika və avadanlıqlar təqdim olunmuşdur.





Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov yeni texnika və avadanlıqların muxtar respublikaya gətirilməsində əməyi olanlara, o cümlədən Çin Xalq Respublikası Hökumətinə və Çinin ölkəmizdəki səfirliyinə təşəkkürünü bildirərək demişdir: Azərbaycan Respublikası Hökuməti ilə Çin Xalq Respublikası Hökuməti arasında imzalanmış Texniki-İqtisadi Əməkdaşlıq haqqında Sazişə əsasən muxtar respublikaya gətirilən texnika və avadanlıqların artıq üçüncü dəfədir ki, təqdimatı keçirilir. "Bərəkət Toxumçuluq" Məhdud Məsuliyyətli Cəmiyyəti, Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətindən sonra bu gün Dövlət Energetika Xidmətinə də yeni texnika və avadanlıqlar təqdim olunur. Yeni texnika və avadanlıqlar elektroenergetika sahəsində, eləcə də muxtar respublikanın səfərbərlik ehtiyatlarında və şəxsi evlərdə istifadə olunacaqdır. Ona görə də bu avadanlıqlardan səmərəli istifadə olunmalı, təyinatlar düzgün seçilməli, istifadə qaydalarına əməl olunmalıdır.

Ali Məclisin Sədri demişdir: Yeni texnikalar muxtar respublikada iqtisadiyyatın müxtəlif sahələrinin inkişafına dəstək verəcəkdir. Suqızdırıcılar hər bir evə lazımdır. Günəş panelləri ilə elektrik enerjisi istehsalına isə bütün sahələrdə ehtiyac vardır. Eyni zamanda yeni avadanlıqlardan Naxçıvan Dövlət Universitetinin ərazisində də qurulub. Bu da Memarlıq və mühəndislik fakültəsində təhsil alan energetiklərin ixtisaslarına uyğun yeni texnologiyaları öyrənmələrində mühüm əhəmiyyət daşıyır.

Sonra Ali Məclisin Sədri yeni texnika və avadanlıqlara baxmışdır.

Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidmətinin rəisi Namiq Paşayev məlumat verərək demişdir ki, yeni texnika və avadanlıqlar 4 adda 828 dəstdən ibarətdir. 410 dəst 2 kilovat günəş enerji istehsal qurğusu, 410 dəst günəş su qızdırıcısı, 6 dəst 10 kilovat avtomatik külək-günəş hibrid enerji istehsal qurğusu, 2 dəst 200 kilovat "ISUZU" markalı enerji mənbəli qəza avtomobili yüksək texniki göstəricilərə malikdir. Günəş enerji istehsal qurğusunun hər dəsti 8 günəş paneli, 8 akkumulyator, invertor, günəş panellərinin quraşdırılması üçün dəmir strukturlar, eləcə də paylama qutusu və köməkçi hissələrdən ibarətdir.

Günəş su qızdırıcısının 60 dəsti maili, 350 dəsti isə düz sahələr üçün nəzərdə tutulmuşdur. Avtomatik külək-günəş hibrid enerji istehsal qurğusu 12 günəş paneli, 10 kilovat gücündə külək turbini, 20 akkumulyator, külək-günəş akkumulyator doldurma idarəedici qurğusu, invertor, günəş panellərinin və külək turbinlərinin quraşdırılması üçün dəmir strukturlar, eləcə də paylama qutusu və köməkçi hissələrdən ibarətdir. "ISUZU" markalı avtomobilin üzərində qurulmuş qəza elektrik mənbəyi elektrik enerjisi kəsintisi olan ərazini qısa zamanda elektrik enerjisi ilə təmin edir. Avtomobillərdə 200 kilovat gücündə maşın-generator bloku, 30 kilovat-amper gücündə ehtiyat qida mənbəyi, idarəetmə sistemi, qoşulma kabelləri və köməkçi hissələr, həmçinin ehtiyat hissələri və təmir dəstləri vardır.

Ali Məclisin Sədri "ISUZU" markalı enerji mənbəli qəza avtomobillərinin Naxçıvan Muxtar Respublikası Səfərbərlik Ehtiyatı Anbarına verilməsi, eləcə də digər



texnika və avadanlıqların istismarı ilə bağlı təkliflərin hazırlanmasını tapşırmışdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# *“Naxçıvandan başlanan xilaskarlıq yolu”* mövzusunda onlayn elmi konfrans

*AMEA Naxçıvan Bölməsində görkəmli dövlət xadimi, ümummilli lider Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilməsinin 29-cu ildönümü ilə bağlı “Naxçıvandan başlanan xilaskarlıq yolu” mövzusunda onlayn elmi konfrans keçirilib.*

Tədbiri giriş sözü ilə bölmənin sədri, akademik İsmayıl Hacıyev açaraq milli dövlətçilik ənənələrimizin dirçəldilməsinin, ümummilli lider Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan dövrünə təsadüf etdiyini deyib. Bildirib ki, 1991-ci il sentyabrın 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin fövqəladə sessiyasında çoxsaylı əhalinin təkidli tələbi ilə Ali Məclisin Sədri seçilən ulu öndərin siyasi fəaliyyətinin yeni mərhələsi başlanıb. Akademik vurğulayıb ki, ölkə tarixində özünəməxsus yeri olan bu sessiyanın keçirildiyi ərəfədə istər Azərbaycanda, istərsə də onun ayrılmaz parçası Naxçıvanda yaranmış gərgin vəziyyət xalqı bu bəladan yalnız Heydər Əliyev şəxsiyyətinin çıxara biləcəyini göstərdi.



“Görkəmli dövlət xadimi Heydər Əliyevin 1990-cı ildəki misilsiz fəaliyyəti və qəbul edilən tarixi qərarlar” mövzusunda məruzə ilə çıxış edən bölmə sədri qeyd edib ki, ulu öndərin 1990-1993-cü illərdə Naxçıvanda yaşayıb-işlədiyi dövrdə qəbul etdiyi dövlət əhəmiyyətli qərarlar, həyata keçirdiyi islahatlar Azərbaycanda milli dövlətçiliyin möhkəmləndirilməsi baxımından mühüm siyasi və tarixi əhəmiyyətə malikdir. Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının dövlət bayrağı kimi qəbul olunması və Azərbaycan SSR Ali Soveti qarşısında həmin bayrağın, bütövlükdə, Azərbaycanın rəsmi dövlət rəmzi kimi tanınması haqqında vəsatət qaldırılması, 31 dekabr gününün ilk dəfə Dünya Azərbaycanlılarının Həmrəylik Günü kimi qeyd edilməsi, Naxçıvan MSSR-in adından “sovet sosialist” sözlərinin çıxarılması, Bakıda baş vermiş Yanvar faciəsinə siyasi qiymət verilməsi, eləcə də qanlı hadisələri törədən şəxslərin məsuliyyətə cəlb olunması və bu kimi digər tarixi qərarların qəbul edilməsi məhz Naxçıvanda keçirdiyi mühüm və tarixi əhəmiyyətli tədbirlər idi.

Akademik İsmayıl Hacıyev vurğulayıb ki, dahi şəxsiyyət Heydər Əliyevin ideyaları bu gün onun layiqli varisi Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkə başçısının qloballaşan dünyanın tələblərinə uyğun yürütdüyü siyasi xətt Azərbaycan dövlətçiliyinin inkişafına, ölkənin milli maraqlarının müdafiəsinə və sosial-iqtisadi tərəqqiyə misilsiz töhfələr verir.

Sonra Naxçıvan Dövlət Universitetinin rektoru, dosent Elbrus İsayev “Ümummilli lider Heydər Əliyevin muxtar respublikanı iqtisadi böhrandan çıxarmaq uğrunda mübarizəsi” mövzusunda məruzə edib. Məruzədə 1990-cı ilin əvvəllərində cəmiyyət həyatının bütün sahələrində baş verən dərin böhrandan bəhs olunub. Rektor ümummilli liderin həyata keçirdiyi tədbirlər, iqtisadi-siyasi layihələrin reallaşdırılması üçün apardığı intensiv danışıqlardan söz açaraq bildirib ki, ulu öndərin qonşu dövlətlər ilə apardığı danışıqlar Naxçıvan ərazisinin ağır blokadadan çıxarılmasına zəmin yaratdı.

Qeyd olunub ki, bu gün muxtar respublikanın iqtisadiyyatı sürətlə inkişaf edir, bütün sahələrdə böyük nailiyyətlərə imza atılır və diyarımızın ixrac potensialına malik bir ərazi kimi nüfuzu günü-gündən artır.

Bölmənin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərli “Ulu öndər Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilməsi Azərbaycan xalqının taleyində böyük siyasi əhəmiyyətə malik tarixi hadisədir” mövzusunda məruzəsində bildirib ki, bu böyük siyasi mərhələdə ölkəmizdə müstəqil dövlətçilik uğrunda mübarizənin möhkəm və əsaslı təməlləri atılıb.

Onlayn tədbirdə Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun şöbə müdiri, AMEA-nın müxbir üzvü Vəli Baxşəliyevin “Ulu öndər Heydər Əliyevin hərbi-siyasi fəaliyyəti” və həmin institutun şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Emin Şıxəliyevin “Naxçıvan Muxtar Respublikasının xarici dövlətlər və beynəlxalq təşkilatlarla əlaqələri” mövzusunda məruzələri dinlənilib.

***AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti***

---

*Qədim və zəngin tarixə malik olan muxtar diyarımız son 3 onillik ərzində sürətli inkişaf və tərəqqi yoluna qədəm qoyub. Bu inkişafın təməlində bir sıra amillər dayanır. Yurd yerinin dünəninə ehtiram, bu gününü daha gözəl görmək istəyi, sabahına cavabdehlik hissi. Başlıca amili isə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov belə xarakterizə edir:* ***“Bizim bir platformamız, Naxçıvan Muxtar Respublikasında inkişafın bir yolu var: bu, möhtərəm Heydər Əliyevin yoludur”.***



# Möhtəşəm quruculuq tədbirlərinin həyata keçirilməsi günümüzün reallığına çevrilib

25 ildir ki, bu yol Naxçıvanı dünyanın muxtariyyət statusuna malik olan digər ünvanların ön cərgəsinə çıxarıb. Əsrin dörddəbiri qədər qısa zaman kəsiyində keçdiyimiz yol Naxçıvana yolu düşənlərin böyük heyrətinə səbəb olur.

Konkret olaraq qədim diyarımızda təkcə tikinti-quruculuq, təmir-bərpa işlərinə nəzər salsaq, görülən işlərin həcmi, coğrafiyası qarşısında biz də təəccübümüzü gizlədə bilmərik. Elə götürək 2020-ci ilin ilk yeddi ayını. Bu dövrdə muxtar respublikada bütün maliyyə mənbələrindən əsas kapitala 594 milyon 960 min 600 manat vəsait yönəldilib. Bu, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 1,3 faiz çoxdur. Vəsait qoyuluşlarının 568 milyon 785 min 800 manatı tikinti-quraşdırma işlərində istifadə edilib.



Bəhs olunan dövrdə 145-dən artıq müxtəlif təyinatlı obyektin tikilməsi, 200-ə yaxın müxtəlif təyinatlı obyektin isə tikintisinin, yenidən qurulmasının və ya əsaslı təmirinin davam etdirilməsi heç də kiçik rəqəmlər deyil. Bir məsələni də xüsusi qeyd etməyə ehtiyac var: diyarımızda bu istiqamətdə həyata keçirilən tədbirlərdə şəffaflığın və qiymət intizamına nəzarətin təmin edilməsi üçün “Elektron nəzarət portalı” yaradılıb, onun fəaliyyəti diqqət mərkəzində saxlanılıb.

Yuxarıda da dediyimiz kimi, quruculuq tədbirləri müxtəlif sahələri əhatə edib. Kənd mərkəzləri yeni təyinatlı obyektlər kimi ilk olaraq muxtar respublikada həyata vəsiqə alıb. Tikildiyi ünvanlarda olan idarə, müəssisə və təşkilatların birgə fəaliyyətini təmin etmək üçün müasir iş şəraiti yaradılıb.

Muxtar respublika sakinlərinin mənzil-məişət şəraitlərinin yaxşılaşdırılması istiqamətində görülən işlər tikinti-quruculuq tədbirlərinin tərkib hissəsinə çevrilib və hamı tərəfindən yüksək dəyərləndirilir. Bəhs olunan dövrdə bir neçə yaşayış binasının



yenidən qurulması başa çatdırılıb, bir neçə yaşayış binasında, Naxçıvan şəhərində “Gənclər Yaşayış Kompleksi”nin tikintisi, tələbə yataqxanasının yenidən qurulması davam etdirilməkdədir. Cari ilin ötən dövrü ərzində fərdi yaşayış evlərinin tikintisinə də ciddi önəm verilib, ümumilikdə, 235 min kvadratmetrədək yaşayış sahəsi istifadəyə verilib.

Həmin obyektlər sırasında Naxçıvan şəhər buzxanasının, Ordubad rayonunun Darkəndində su dəyirmanının, Yusif Küseyir oğlu türbəsinin, Şahtaxtı hamamının bərpası, Naxçıvan şəhərində yeni salınan Sahil Parkı da var.

Hazırda paytaxt şəhərimizdə məscidin, Şərur, Ordubad və Sədərək rayonlarında Bayraq meydanlarının, Babək şəhərində bazarın, Şahbuz rayonunun Ağbulaq kəndində Xizək Mərkəzinin, Ordubad və Tivi Su Elektrik stansiyalarının tikintisində sürətli iş ahəngi hakimdir.

Onu da qeyd edək ki, muxtar respublikada yol infrastrukturunun yenidən qurulması da diqqətdə saxlanılıb. Culfa-Ordubad magistralının, Şərur rayonunun Qarxun-Muğancıq-Mehrab-Məmmədsabir, Ordubad rayonunun Xanağa-Ağrı-Dizə-Vənənd-Darkənd avtomobil yolunun yenidən qurulması başa çatdırılıb.

Muxtar respublikamıza “Rayon mərkəzlərinin və ətraf kəndlərin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması” layihəsinin həyata keçirilməsinə bir neçə ildir ki, başlanılıb. Ötən dövrdə bütün bölgələrimizdə xeyli iş görülüb. Hazırda da bu layihənin reallaşdırılması istiqamətində quruculuq tədbirləri davam etdirilir. Bunun ifadəsidir ki, Şərur rayonunun Dərvişlər kəndində içməli su xəttinin çəkilişi başa çatdırılıb. Şərur Şəhər Sutəmizləyici Qurğular Kompleksi və rayonun Cəlilkəndində içməli su şəbəkəsi istifadəyə verilib.

Qeyd edək ki, quruculuq ərməğanlarından hərbçilərə də xeyli pay düşüb. Əsgəri-yaşayış komplekslərinin, qərargah binalarının, infrastruktur obyektlərinin və digər yardımçı binaların tikintisi və yenidən qurulması Naxçıvandakı hərbi hissələrdə qulluq və xidmət keçən hərbçilərə böyük qayğının ifadəsidir. Bəhs olunan dövr ərzində Naxçıvan şəhərində, Babək, Culfa, Şahbuz, Şərur rayonlarında bu istiqamətdə quruculuq tədbirləri davam etdirilib. Hərbi qulluqçuların mənzil-məişət şəraitlərinin yaxşılaşdırılması məqsədilə Naxçıvan hərbi şəhərciyində və Sədərək rayonunda zabit və gizir ailələrinə yeni xidməti mənzillər təqdim olunub.

*Gəlinən qənaət odur ki, böyük tikinti meydançasını xatırladan muxtar diyarımızda möhtəşəm quruculuq tədbirlərinin həyata keçirilməsi günümüzün reallığına çevrilib. Qurulanların, yaradılanların qorunmasına da diqqət xeyli artıb. Çünki hər bir naxçıvanlı belə tədbirlərin asan başa gəlmədiyini görür, bu işlərin diyarımızın gündən-günə daha da çiçəklənməsi üçün olduğunu yaxşı bilir.*

**Muxtar MƏMMƏDOV**

---

*Ordumuzun qüdrətini artıran mühüm amillərdən biri də xalq-ordu birliyidir. Naxçıvan Muxtar Respublikasında bu məsələ daim diqqətdə saxlanılır, dövlət orqanları da xalq-ordu birliyinin möhkəmlənməsinə töhfə verir. Dünən Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsi tərəfindən 58 adda müxtəlif malların müvafiq qurumlara təhvil verilməsi həyata keçirilib.*



# Gömrük orqanları xalq-ordu birliyinin möhkəmlənməsinə töhfə verir

Bu məqsədlə 935 kiloqram yuyucu toz, 173 kiloqram təmizləyici vasitə, 207 təmizləyici sprey və tablet, 76 şampun, 45 duş jeli, 232 şüşə alma sirkəsi və keçibuynuz bəkməzi, 144 kiloqram noxud ləpəsi, 55 kiloqram qida məhsulu, 50 kiloqram kərə yağı, 20 kiloqram düyü, 20 kiloqram şəkər tozu, 17 kiloqram duz, 16 kiloqram qənd, 391 közərmə lampası, 60 kiloqram boya, 42 avtomobil şini, 15 kiloqram parça, 13 qaz cihazı, 6 adda 14 ədəd digər mallar “Naxçıvan” Əlahiddə Ümumqoşun Ordusuna təhvil verilib.

“Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasına təhvil verilən mallar 470 kiloqram yuyucu toz, 85 kiloqram təmizləyici vasitə, 98 təmizləyici sprey və tablet, 38 şampun, 22 duş jeli, 116 şüşə alma sirkəsi və keçibuynuzu bəkməzi, 72 kiloqram noxud ləpəsi, 25 kiloqram kərə yağı, 25 kiloqram qida məhsulu, 12 kiloqram düyü, 10 kiloqram şəkər tozu, 8 kiloqram qənd, 8 kiloqram duz, 28 kiloqram boya, 6 qaz cihazı, 1 elektrik sobası, 200 kiloqram buğda və digər mallardan ibarət olub.

146 kiloqram yuyucu toz, 28 kiloqram təmizləyici vasitə, 39 təmizləyici sprey və tablet, 13 şampun, 8 duş jeli, 39 şüşə alma sirkəsi və keçibuynuzu bəkməzi, 30 kiloqram kartof, 24 kiloqram noxud ləpəsi, 11 kiloqram kərə yağı, 13 kiloqram qida məhsulu, 13 kiloqram boya, 3 qaz cihazı və digər mallar Daxili Qoşunların Naxçıvan Əlahiddə Əməliyyat Briqadasına, 30 ov gülləsi patronu, 7 elektroşok, 7 gözyaşardıcı qaz, 4 beşbarmaq, 2 ov bıçağı, 1 qaz tapançası mərmisi, 1 radar detektoru, 1 dəyənək, 1 balta Daxili İşlər Nazirliyinə, 1 dron Dövlət Televiziya və Radio Verilişləri Komitəsinə təhvil verilib.

***Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin mətbuat xidməti***

***Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, muxtar respublika Yazıçılar Birliyinin sədri Asim Yadigarın "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində yüksək poliqrafik səviyyədə işıq üzü görmüş yeni "O mənim ürəyim deyil..." kitabı akademik İsa Həbibbəylinin "Vətəndaşlıq mövqeyi, plyus lirizm" adlanan yazısı ilə açılır. Akademikin qənaəti: "Asim Yadigar yeni dövr Azərbaycan şeirində özünəməxsus dəstxəti və xidmətləri olan şairdir. O, müasir Azərbaycan ədəbiyyatının orta nəslinin tanınmış bir nümayəndəsidir. Onun şeir yaradıcılığı mənaca dərin və təsirli, forma etibarilə zəngindir, əlvandır... Asim Yadigarın müstəqil dövlətçilik ideallarını işıqlandıran şeirləri ən yeni dövr Azərbaycan poeziyasının düşündürücü, mənalı və təsirli nümunələridir. Şairin bu mövzuda yazılmış şeirləri Azərbaycan ədəbiyyatında böyük ənənələri olan siyasi lirikanı daha da zənginləşdirməyə xidmət edir. Siyasi lirika istiqamətində yaratdığı şeirlərdəki bədiilik faktoru bu poetik nümunələri uzunömürlü sənət faktına çevirir. Asim Yadigar müstəqillik dövrü Azərbaycan şeirində siyasi lirikanın əsas yaradıcılarından biridir".***

*Yeni nəşrlər*

## Dünənin poetik əksi, bu günün salnaməsi

Kitabı oxuduqca bu fikirlərin son dərəcə dəqiqliyini təsdiq edirsən. Belə demək daha düzgün olar: İsa Həbibbəyli Asim Yadigar yaradıcılığına işıq salaraq oxucunu şairin şeirlərindən alacağı ovqata kökləyir:

*Heykəltəraş qardaşım, bir nurlu heykəl yarat,*
*Heydərimin adına yaraşan heykəl olsun.*
*O, heykəltək ucaltdı anam Azərbaycanı,*
*Qoy sənin yaratdığın ondan da gözəl olsun.*




Hər sözündən, hər sətrindən ümummilli liderimiz Heydər Əliyevə, dahi rəhbərin qurub-yaratdığı, bizə və gələcək nəsillərə ərməğan etdiyi doğma Azərbaycana böyük məhəbbət və ehtiram süzülən bu misralar kitabda özünə yer almış "Bir nurlu heykəl yarat" şeirindəndir. Müəllif bu şeirlə ulu öndərin Azərbaycana rəhbərliyi dövründə ölkəmiz üçün gördüyü işlərin xəritəsini cızıb. Yeri gəlmişkən qeyd edim ki, yaradıcılığına yaxından bələd olduğum şair dostumun poeziya dünyasında Heydər Əliyev mövzusunun coğrafiyası çox genişdir və bütün şeirlərində Asim Yadigar əsl insan, əsl rəhbər, əsl xarakter yaratmaqla dahi rəhbərin poetik tərcümeyi-halını öz oxucusuna təqdim edib. "Bir bayraq altında", "Heydər zirvəsi", "Dədə Heydərim mənim" və digər şeirlərdə şair qəlbinin yaşantılarını, vətənpərvərlik duyğularını hiss etmək çətin deyil. Şairin doğma Vətənimiz Azərbaycan, onun şanlı tarixini özündə yaşadan dünəni, uğurları, inkişaf və tərəqqisi, bu günü haqqında yazdığı "Azərbaycan bayrağı", "Azərbaycan tarix yazır" və digər şeirləri müasir Azərbaycan ədəbiyyatında siyasi lirikanın ən gözəl nümunələri səviyyəsindədir.

Ümumilikdə, "Vətən sevgisi", "Vur komandir, vur", "Türkün gücü", "Bu yol Təbriz yoludur", "Mənim ürəyimlə oynama" adlı fəsillərdə toplanmış şeirlərdən, "Midiyanın süqutu" və "Amansız intiqam" adlı mənzum dramlardan ibarət olan kitabı oxuyarkən Asim Yadigarın müstəqillik uğrunda mübarizənin çətin imtahanlarının ən mühüm məqamlarını öz səsi, öz nəfəsi ilə əks etdirdiyini görürük.

Şairin üçrəngli bayrağımıza həsr etdiyi bir neçə şeiri var. Bu şeirlərin hər sətrində 70 il alimizdən alınan, bu gün mavi səmalarda məğrur-məğrur dalğalanan bayrağımıza ülvi məhəbbətin şahidi oluruq. O bayrağın ulu öndərin təşəbbüsü ilə ilk dəfə Naxçıvanda qaldırılması müasir siyasi tariximizin qızıl səhifəsi, Naxçıvan isə Azərbaycan dövlətçiliyinin intişar tapdığı müqəddəs torpaqdır:

*Canımız, qanımıztək sevmişik Naxçıvanı,*
*Şəhid qanı çilənib daşına, torpağına.*
*Üçrəngli bayrağımız burda ucalıb göyə*
*Qürurla, iftixarla baxıb el, bayrağına.*

Görkəmli dövlət xadimi Heydər Əliyev, doğma Azərbaycan və onun ayrılmaz tərkib hissəsi Naxçıvan!.. Ədəbiyyatımız üçün əbədi olan mövzularda Asim Yadigarın qələmə aldığı şeirlərdən qırmızı xətt kimi keçən nüanslar dahi rəhbərə böyük məhəbbət və ehtiram, dövlətçiliyə inam və sədaqət, yurd yerinə, onun dününə və bu gününə sevgidir. Bu ülvi hisslərin üfüqləri genişliyi ilə poetikləşdirilib; bu poetikləşmədə bədii təsvir vasitələrinin gücündən ustalıqla və yerindəcə istifadə olunub. Onu da qeyd edək ki, şair bu şeirlərdə, hər şeydən əvvəl, əsl vətəndaş, əsl ziyalı kimi oxucunun diqqətini cəlb edir.

40 ildən artıqdır ki, ədəbi yaradıcılıqla məşğul olan şairin digər mövzularda qələmə aldığı şeirləri də ədəbiyyatımızın misrasına çevrilməklə oxucu sevgisi qazanıb. Müəllif bu poetik nümunələrdə həyata fərdi baxışlarını ictimailəşdirə bilib:

*Tariximiz torpaq altda uyuyur bizim,*
*Bəlkə, bir gün daşlar üstdə üzə çıxacaq?*
*Bəlkə, o daş parçasıyla bilinəcəkdir,*
*Neçə-neçə qədim xalqdan qədimdir bu xalq?*

Asim Yadigar həm də təbiət şairidir. Növbəti kitabında bu mövzuda qələmə aldığı şeirlər çoxdur. Həmin şeirlərində şair qədim Naxçıvanımızın gözəlliklərinin poetik rəsmini yaradır. Bu poeziya nümunələri ilə bağlar diyarı Ordubadda qonaq olur, bir vaxtlar güllələr açılan, bu gün isə güllər açaraq gülüstana dönən sərhəd bölgəmiz Sədərəyi gəzir, Şərurun, Şahbuzun seyrinə dalırıq.

Şair rübai, təxmis və qəzəllərində də sənət amalına sadiqdir. Klassik ədəbiyyatımızı dərindən bilən Asimin yaradıcılığında bu janrlara müraciət təbiidir və həmin nümunələr ədəbiyyatımızda qədim ənənələrin bu gün də yaşadıldığını, sevildiyini göstərir.

Akademik İsa Həbibbəylinin təbirincə desək, Asim Yadigarın şeirlərində onun özünüifadəsini, avtoportretini də görürük. "O mənim ürəyim deyil..." şeiri bu qənaəti bütün dolğunluğu ilə əks etdirir:

*Vətəni, torpağı bütöv olmayan*
*Bir şair ürəyi yaralanmayıb?*
*Torpağım bölünüb, elim bölünüb,*
*Ürəyim bəs niyə paralanmayıb?*

Kitabda özünə yer almış yeddi poema və "Midiyanın süqutu", "Amansız intiqam" mənzum tarixi faciələrində bir daha şairin öz doğma torpağına, onun şanlı tarixinə məhəbbətini görürük. Bu tarixin dərin qatlarında gizlənən həqiqətlərin bədii inikası şairin uzun illərki axtarışlarının ifadəsidir. O dövrün reallıqlarına bu günün prizmasından yanaşmaqla dünəndə yaşanmışların poeziyaya gətirilməsi ənənəsi Asim Yadigar yaradıcılığının genişliyini, onun vətəndaşlıq mövqeyini göstərir.

***Son olaraq onu deyək ki, 464 səhifəlik bir kitab haqqında əhatəli danışmaq bir qəzet yazısı üçün mümkünsüzdür. Odur ki, "O mənim ürəyim deyil..." barədə bu kiçik qeydlərlə kifayətləndik. Oxuculara bu kitabı oxumaq, şair dostuma gələcək yaradıcılığında müvəffəqiyyətlər arzulamaq istəyi ilə:***

**Muxtar MƏMMƏDOV**

*Gəncliyimiz, gələcəyimiz*

## İstedadlı gənclərin uğurları sevindiricidir

***Sağlam və savadlı insan cəmiyyətin ən dəyərli sərvətidir. Yüksək intellektli gəncliyə sərf olunmuş sərmayə isə ən doğru investisiya kimi bütün cəmiyyəti inkişafa qovuşduran əsas amillərdəndir. Bu mənada, istedadlı gənclərimizə göstərilən diqqət və qayğı, onların hərtərəfli yetişdirilməsi təhsilimizin ümumi uğuru kimi keçilən yolun da bir nailiyyətidir. Builki qəbul imtahanlarında yüksək nəticə göstərərək 3-cü qrup üzrə muxtar respublika birincisi olmuş Siyavuş Bağırov da belə gənclərimizdəndir.***



Naxçıvan şəhər Əkbər Ağayev adına 8 nömrəli tam orta məktəbin məzunu olan Siyavuşu qəzetimizin daimi oxucuları yəqin yaxşı xatırlayırlar. Hələ bir il əvvəl 2019-cu il 24 iyun tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin gənc istedadların xüsusi təqaüdə layiq görülməsi haqqında Sərəncamı ilə Siyavuş Bağırovun da adı Naxçıvan Muxtar Respublikası Gənc İstedadlarının "Qızıl kitabı"na yazılıb və o, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin xüsusi aylıq təqaüdünə layiq görülüb. Şübhəsiz, gənc bir şagird üçün bu, onun təhsil yollarında daha böyük uğurlara imza atması üçün ən böyük dövlət qayğısı olub. Artıq çəkilən zəhmət öz bəhrəsini verib və gənc Siyavuş bu il keçirilən qəbul imtahanlarında yüksək nəticə göstərib və 665 balla həm valideynlərini, həm də bitirdiyi məktəbin müəllimlərini sevindirib.

Hazırda abituriyentlər üçün qarşıdan ixtisas seçimi mərhələsi gəlir. Siyavuş Bağırov Bakı Dövlət Universitetinin Hüquqşünaslıq ixtisasını seçmək niyyətindədir. Onunla söhbətində bildirir ki, bu arzusu dünyada gedən müasir prosesləri izləməsi ilə yanaşı, tarix fənninə olan marağından da yaranıb. Təsadüfi deyil ki, o, qəbul imtahanında bu fənn üzrə yüz faiz nəticə göstərib, dəfələrlə muxtar respublika və ölkə səviyyəli olimpiadaların qalibi olub. İstedad sahibi kimi Siyavuş humanitar fənlərdən başqa, dəqiq elmlərə və şahmata olan həvəsi ilə də fərqlənir. Sərbəst mütaliəni də çox sevən gənc istedad müxtəlif vaxtlarda keçirilən "Nuh yurdu", "Xəmsə", "Breyn-Rinq" oyunlarında dəfələrlə 1, 2, 3-cü yerləri tutub və təmsil etdiyi komanda 2019-cu ildə Azərbaycanda ilin ən yaxşılarından olub. Siyavuşun uğurları arasında ilk dəfə qatıldığı "Sabahın alimləri" layihəsində onun kimi istedadlı sinif yoldaşı Araz Qulusoyla birlikdə doğma Naxçıvanı ilk dəfə təmsil edərək bürünc medal qazanmasını da qeyd etməyimiz yerinə düşər. Bütün bunlar isə Siyavuş Bağırovun tələbəlik illərində də uğur qazanacağına böyük ümid yaradır.

Təhsildə əldə olunan nəticələr hər bir gənci, onun ailəsini, yetişdiyi təhsil ocağını sevindiriyi kimi, dövlətimizin də hər sahədə mütəxəssis olacaq milli kadrlar hazırlanması istiqamətində həyata keçirdiyi tədbirlərin uğurlu bəhrəsidir. İnanırıq ki, bu gün Siyavuş Bağırov kimi gənc istedadlar sabahın etibarlı qurucusu kimi bu yolun layiqli davamçısı olacaqlar.

**Əli CABBAROV**

## İqtisadçı alim onlayn beynəlxalq konfransda iştirak edib



Türk Turizm Akademikləri Dərnəyi (TUADER) tərəfindən Türkiyənin qabaqcıl universitetlərinin dəstəyi, dünya miqyasında tanınmış turizm alimləri ilə birlikdə təşkil olunmuş "Daha yaxşı dünya üçün turizm" adlı beynəlxalq konfransın 2-5 sentyabr tarixlərində onlayn olaraq keçirilməsi nəzərdə tutulub. Konfransın keçirilməsində məqsəd dünya ölkələrində turizmin inkişafının qiymətləndirilməsi, pandemiya dövründə turizm sektorunun dəyərləndirilməsi, turizm məhsullarının markalanmasına təsir edən faktorlar və digər qlobal problemlərin müzakirə olunmasıdır.

Konfransın tərtib olunmuş proqramına əsasən ilk günün bölmə iclasında Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyi yanında Maliyyə Tədris Mərkəzinin direktoru Mehriban İmanova "Azərbaycan turizm sənayesinin qiymətləndirilməsi" mövzusunda çıxış edib. Azərbaycan, onun ayrılmaz tərkib hissəsi olan Naxçıvanın əsrarəngiz təbiəti, qədim tarixi-mədəniyyət abidələri və folklor nümunələri, turizm məhsulları slaydlar vasitəsilə nümayiş etdirilib, ölkəmizin turizm sənayesinin mövcud vəziyyəti və onun inkişafına təsir edən amillər diaqramlar əsasında təhlil olunaraq qiymətləndirilib. Qeyd edilib ki, 2019-cu ildə turizm sənayesinin inkişafında əvvəlki illərə nisbətən bütün amillər üzrə artım müşahidə olunsa da, inkişaf etmiş ölkələrdən Azərbaycana gələn turistlərin sayının artırılması üçün müvafiq tədbirlərin görülməsinə ehtiyac vardır. Vurğulanıb ki, ölkəmizə üz tutan turistlərin əsasını Rusiya Federasiyası vətəndaşları təşkil etdiyi halda, göndərilən turistlərin sayında Türkiyə Cümhuriyyəti ilk sırada yer alır. Onu da qeyd edək ki, muxtar respublikanın əhəmiyyətli turistik obyektlərindən biri olan Duzdağ Fizioterapiya Mərkəzi haqqında məlumat konfrans iştirakçılarının böyük marağına səbəb olub.

Sonda dinləyicilərin sualları cavablandırılıb.

**Xəbərlər şöbəsi**

## Dulusçuluq və qum sənəti dərnəklərinin onlayn məşğələsi təşkil olunub



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı"nın təsdiq olunması bu kateqoriyadan olan uşaqların layiqli vətəndaş kimi formalaşması, cəmiyyətə inteqrasiyası, təhsilə cəlbinin davamlılığının təmin edilməsi, təlim-tərbiyəsi, onların hüquqlarının müdafiə olunmasına göstərilən qayğının daha bir nümunəsidir.

Bu proqramın icrası ilə əlaqədar Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyi tərəfindən də müvafiq tədbirlər həyata keçirilir. Mütəmadi olaraq sağlamlıq imkanları məhdud uşaqların asudə vaxtlarının səmərəli təşkili, onlarda dünyagörüşünün formalaşması, eləcə də bu kateqoriyadan olan uşaqların müxtəlif sahələrdə bilik və bacarıqlarının təkmilləşdirilməsi istiqamətində bir sıra işlər görülüb, onların muxtar respublikada fəaliyyət göstərən muzeylərə, tarixi abidələrə virtual gəzintiləri, həmçinin məktəbdənkənar tərbiyə müəssisələrinin dərnəklərinə onlayn ekskursiyaları təşkil olunub.

Belə tədbirlərdən biri də dünən sağlamlıq imkanları məhdud olan 18 yaşadək 10-dan çox uşağın Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin dulusçuluq və qum sənəti dərnəkləri üzrə təşkil edilən onlayn məşğələsidir. Naxçıvan Muxtar Respublikası Təhsil, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinin birgə təşkilatçılığı ilə keçirilən məşğələdə uşaqlara dərnəklərin fəaliyyəti barədə ətraflı məlumat verilib, ayrı-ayrılıqda hər iki dərnəyin rəhbəri tərəfindən uşaqlar üçün maraqlı əl işləri hazırlanıb. Belə ki, mərkəzin Estetik tərbiyə, təsviri incəsənət və musiqi şöbəsinin qum sənəti dərnəyinin rəhbəri Həbib Allahverdiyev təsviri incəsənətin mənzərə janrı haqqında uşaqlara məlumat verdikdən sonra işıqlı masa üzərində qumla bu janra aid əsərlərin işlənmə texnikasını onlara göstərib və təsviri canlandırıb.

Həmçinin Milli dəyərlər, dekorativ-tətbiqi sənət və toxuculuq şöbəsinin dulusçuluq dərnəyinin rəhbəri Elnur Əliyev uşaqlara dulusçuluq sənəti haqqında məlumat verərək gillə işləməyin qaydalarını öyrədib və hazırladığı balaca küpəni onlara nümayiş etdirib.

Məşğələ uşaqlar tərəfindən böyük maraqla qarşılanıb və onlarda bu sənət növlərinə həvəs yaradıb.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***



# Təqaüdçülərə daha bir qayğı

*Ümummilli liderimiz Heydər Əliyev deyirdi: **"Veteranlar, ağsaqqallar milli-mənəvi dəyərlərimizin qızıl fondudur. Onlar hər cür qayğı və hörmətə layiqdirlər".** Bu gün qədim diyarımızda ulu öndərin hər bir arzusu, hər bir kəlamı rəhbər tutulur, görkəmli dövlət xadiminin siyasəti uğurla davam etdirilir. Ulu Naxçıvanımızda yaşadılan milli-mənəvi dəyərlərimizdən biri yaşlılara hörmət və ehtiramla yanaşmaq, onların qayğısına qalmaqdır. Qədim diyarımızda sakinlərin asudə vaxtlarının səmərəli təşkili, o cümlədən ağsaqqallara, təqaüdçülərə, veteranlara göstərilən qayğı, onların sosial problemlərinin həlli istiqamətində həyata keçirilən tədbirlər təqdirəlayiqdir. Bu tədbirlər çərçivəsində yeni parklar, istirahət guşələri yaradılır, yaşayış məntəqələrində mədəniyyət evləri və klublar üçün yeni binalar istifadəyə verilir.*

Ötən günlərdə Şərur şəhərində istifadəyə verilən Təqaüdçülər Klubu bu qəbildən olan vətəndaşların asudə vaxtlarının səmərəli təşkili üçün yaradılan şəraitin daha bir əyani ifadəsidir. Biz də həmin ünvanda yaradılan şəraitlə yaxından tanış olmaq üçün oraya üz tutduq, elimizin ağsaqqalları ilə həmsöhbət olduq. Şərur şəhər sakini, ağsaqqal Elbrus Ələkbərovdan öyrəndik ki, binanın birinci mərtəbəsində iş otaqları, kitabxana, bufet və oyun zalı, ikinci mərtəbədə



isə 2 dama və 2 şahmat zalı yerləşir. Klubun kitabxanasında 499 kitab vardır. Binanın həyətində abadlıq işlərinin aparılması və musiqili fəvvarənin quraşdırılması ağsaqqallarla bərabər, rayonun digər sakinlərini də sevindirib. Axşamüstü buranın həyəti uşaq, böyüklə dolu olur. Klubda gənclərin ağsaqqallarla görüşü təşkil edilir. Gənclərimiz bizə yaradılan şəraitlə tanış olur, məsləhətlər alırlar.

Şərur rayon Ağsaqqallar Şurasının sədri Mirhüseyn Seyidov:

– İnsan ömürboyu Vətəninə öz işlədiyi sahədə xidmət etməyə çalışır. Fərqi yoxdur müəllim, hərbçi, idmançı ya da bənna, pinəçi. Hansı sənətin, peşənin yiyəsi olursan-ol, vaxt gəlir, qocalıq qapımızda dayanır və biliyimizi, təcrübəmizi gənc nəslə verib təqaüdə çıxırıq. Evdə nəvələrimizlə günümüzü keçirir, boş vaxtlarımızda isə öz həmyaşıdlarımızla görüşüb söhbətləşəcək məkan sorağına çıxırıq. Belə bir yerin yaradılması biz ağsaqqallara ən böyük hədiyyədir. Burada kitab, qəzet jurnal oxumaq, nərd, şahmat oynamaq üçün yaradılan şərait ürəkaçandır. Mən rayon ağsaqqalları adından bizə göstərilən diqqət və qayğıya görə dövlətimizə minnətdarlığımı bildirirəm.

Təqaüddə olan müəlim Rza Camalov:

– Uzun, çətin bir sınaqdan keçib xalqımızın dahi oğlunun ətrafında sıx birləşib bu günümüzə qovuşduq. O vaxtlar belə firavan yaşaya biləcəyimizi xəyal belə, etməzdik. Zaman keçdi, müstəqilliyimizin təməlləri möhkəmləndi və hər cəhətdən inkişafa nail olduq. İllər əvvəl gəzməyə nə bir yaşıllıq var idi, nə də əyləşib tay-tuşunla həmsöhbət olmağa bir yer. Bu gün təkcə rayonumuzda deyil, muxtar respublikamızın hər guşəsində quruculuq ünvanları göz oxşayır. Bütün bunlar isə sevincimizə səbəb olur, dövlətimizə minnətdarlıq hissimizi artırır.

Rayon ağsaqqallarından Musa Məmmədli, Qəzənfər Novruzov, İlyas Hüseynov muxtar respublikamızda bütün sahələrdə olduğu kimi, yaşlı nəslin nümayəndələrinə də xüsusi diqqət və qayğı göstərilməsindən, onların zəruri ehtiyaclarının ödənilməsindən söhbət açdılar. Bildirdilər ki, ölkəmizin ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə iştirak etmiş müharibə veteranları və sağlamlıq imkanlarını itirmiş şəxslərin sosial müdafiəsinin gücləndirilməsi aparılan uğurlu sosial siyasətin başlıca istiqamətlərindən birini təşkil edir, xüsusi imtiyazlı təbəqədən olanların avtomobil və mənzillərlə təminatı diqqətdə saxlanılır. Bütün bunlarla yanaşı, onların asudə vaxtlarını səmərəli keçirmələri üçün də hər cür şərait yaradılır. Biz də bu şəraitdən səmərəli istifadə edərək



vətənpərvər gənclər yetişdirilməsi, onların milli ruhda tərbiyə olunmaları və milli-mənəvi dəyərlərimiz əsasında formalaşmaları üçün uzun illər qazandığımız bilik və təcrübəni burada keçirilən görüşlərdə onlara aşılayırıq. Bunun üçün günün tələblərinə cavab verən, mənəvi tələbatımızı ödəyən, bizim üçün əsl mədəni istirahət yeri olan Təqaüdçülər Klubunda digər tədbirlərə də böyük önəm verilir, müxtəlif stolüstü oyunların yarışları təşkil edilir. Bir sözlə, bu gün şərurlu ağsaqqallar üçün bu məkanda yaradılanlar, sanki onları cavanlaşdırıb. Bunun üçün minnətdarlığımızı bildiririk.

Ağsaqqal xalqın adət-ənənələrinin daşıyıcısı, nəsildən-nəslə ötürücüsüdür. Müasir cəmiyyətimizdə yeni nəslin tərbiyəsində, cəmiyyətin formalaşmasında, ümumiyyətlə, həyatımızın bütün sahələrində ağsaqqal sözü, ağsaqqal məsləhəti əvəzsiz rol oynayıb. Onlara qayğı isə köklü ənənələrimizin bu gün də layiqincə yaşadılmasından xəbər verir.

✍ **Ramiyyə ƏKBƏROVA**

***Yarım əsrdən çox tarixə malik bir kitabxanadan gəlir bu pıçıltılar... Səs gəlir, pıçıltısı ilə belə şüurlara hakim kəsilən səs, əsrləri, tarixləri yaşadan bir səs... Qulağım dilimə hökm edir, eşitmirəm daha, – deyir... Gözlərimdəki suallar dilimdə söz olub asılır hər küncə, bucağa. Görmək istəyirəm, bu əsrarəngizliyi... sevimli elm məbədgahımız – Naxçıvan Dövlət Universitetinin əsas binasından azca uzaqlaşıram, orada, lap yaxında bir mavilik var, göy üzünü xatırladır, səma ilə təmasda, onun qədər dərin, onun qədər hüzurlu... Boylanıram ətrafa – kitabxanadır. Doğma diyarımızın müasir gözəlliklərinin bir səhifəsini əks etdirir bu bina.***

# Pıçıltılar

*(esse)*



Elm ocağı, kamil şəxslər yetişdirən, həyat və elm dərsi verən bir binadır bura. Kitab qoxusu yayılıbdır həyətdəki hər çiçəyə, hər gülə. Böyük şair Rəsul Rza xəyalımdan boylanaraq elə bu dəm baxır yana... Kimi isə arayır o, axtarır o! Əllərində qızılgüllər, bəlkə gedir o Müşfiqi qarşılaya? Heyrət etdim bu dostluğa, qızılgüllər solmayacaq, qorxma daha!!! Yavaş-yavaş oxuyuram pıçıltıyla: "Qızılgüllər var olacaq. Bu abad yurd, sönməz ocaq durduqca saralıb solmayacaq..."

Qapı taybatay açılıbdır, xoş gəldin edir hər gələnə. Yenə əllər dolu kitab... Görəsən, hansı şair hansı şairlə "qonşu olacaq?" Üzlərdə o yükün ağırlığı, bəllidir, kitabdakı söz yükü ağır olar... Asanlıqla dərk edilməz, cümləlıəri məna-məna "yetişməmiş" o, dərilməz... Artıq pıçıltıların səsini daha aydın eşidirəm, kitablardan səs-səsə verib danışır hər ölkə, hər xalq... Bir tərəfdə Xətainin xoş avazı, şah vüqarla hökm edir xaqanlara! Bir tərəfdə qürbətdəki Füzuli də dua edir Məcnununa. Anladırlar, anlayıram, belə yaşayır ədəbiyyat, belə yaşanır əbədiyyət! Yoxdur burada zəncirlənmiş o sərhədlər, Şəhriyar da qonaq olub bu ocağa, bu yerə... Görüşür o, Bəxtiyarla, o Vurğunla... Nəsimini çəkməyiblər heç çarmıxa, şeir olub heykəlləşib, daşlaşıbdı o burada... Şekspir də gülümsəyir, yazdıqları yalnız olum! Silibdir o, ölümləri kitablardan... O rəflərin arasında Tolstoydur, bax, deyəsən, Anna üçün ölümsüz bir qatar yolu düşünübdür. Ümid ölüb, arzu bitib, Qoca artıq dənizlərdən əlin üzüb, tilov atır kitablara... Balaca Şahzadə də təsadüfən qonaq olub bu diyara... Sirri axtarır! Pıçıltıyla danışanlar görünməyir... Onları oxucuya göstərən bir rəssam var – Van Qoq çəkir, çəkir, bitmir rəsmi... Deyir, rənglərim də bu sükuta verib qulaq, pıçıltıyla danışacaq. Al-əlvan bir gözəl tablo, pıçıltısı ürəklərdə eşidilir... Sən də bir gün qonaq ol, gəl buraya! Hər kəs dostdur, hər kəs yoldaş, insanlıqdır hökm sürən bu minvalla! Qılınc davası bitib, savaş bitib, Fəxrəddin də qılıncını qoyub qına qədəm qoyub Nizaminin söz mülkünə... Hər kəs anlar buradakı kitabların öz dilini, səs yüksəlmir, ancaq sözdür ürəklərə, beyinlərə nüfuz edən.

Gəl qonaq ol, sən də dostum, bu fəzilət dolu bir dünyaya. O dünya ki bizə yara aldırmayan təcrübələr, həyatımızda yıxılmaqdan, sarsılmadan gediləcək dümdüz yolu o bəxş edir. Əl-ələ verək gedək, ey kitab pıçıltısına aşiq olanlar, kitab yurdunu sevənlər... Tikanlardan zərbə almadan, qovuşaq "Gülüstan"ımıza, güllü bağımıza... Oxuyub seyr edək, həyat mübarizələrini... Zamanı döndərib, tarixi öyrənək! Millət dərdinə yanaq, Vətən üçün Eloğlu olaq, məlhəm olaq, dərman olaq. Sual verib, cavab alaq "Azər" kimi: Hansı qanı daşıyırıq köksümüzdə? Məramımız, məqsədimiz harayadır? Cavidin mələk qanı hələ də axırmı qanımızda? İblismi olmuşuq yoxsa artıq?.. Qoşulaq bir-birimizə, "Həyat eşqi"ndən yüksələrək uğurlara, boylanaq zəfərin tağlarına. Dərk edək bu dünyanı, bu yeri... özümüzü, sözümüzü... Niyə vardıq? Haralardan haralara biz ucaldıq? Yaradaq kitab xəritəsi, böyüsün kitab adlı bir diyar, səs salsın pıçıltı ilə dünyaya, daha eşitməsin qulaqlar mərmi, qurşun səsini. Xəyallar, düşüncələr, kitablarda şahə qalxan o kəlmələr hakim olsun bu diyara, insanlıq da yarışsın qoy kitablarla! Oxuyaraq, öyrənərək öyrətməklə! Beləcə, başlasın: kitablarla ünsiyyət! Biz oxuyaq, pıçıldasın o bizlərə... Oxu deyə, oxu deyə...

**Könül SEYİDOVA**

# Kiçik pəncərədən görünən böyük gözəllik...



***Fotoşəkildə bir yaşayış binası var... Sadə, adi bir yaşayış binası... Nə müasir meqapolislərin bəzəyinə çevrilmiş göydələnlər kimi soyuq və təmtəraqlı, nə də adi memarlıq elementlərindən uzaq olacaq qədər tipik. Qarşısında da sakinlərin istirahəti üçün qoyulmuş skamyalar, kiçik bölmələrə ayrılmış yaşıllıqlar və sıra ilə səliqəli düzülmüş velosipedlər... Əslində, burada qeyri-adi heç bir şey yoxdur. Ancaq ortada bir gözəllik var... Məxsus olduğu şəhərin kiçik bir mənzərəsini ortaya qoyan, insanlarının həyat tərzini, davranış mədəniyyətini, vətəndaşlıq məsuliyyətini, ən əsası sivil təfəkkürünü kiçik bir pəncərədən təqdim edən sadə bir gözəllik...***

Hərdən mənə elə gəlir ki, burada yaşayan sakinlər çox xoşbəxtdirlər. Çünki yaşayış üçün minimum şərtlərin yüksək səviyyədə təmin olunduğu bu kiçik ərazidə hər şey ilk baxışdan diqqəti cəlb edir. Binanın ətrafı təmiz və gözəldir. Asfalt və daş döşəməli ərazidə, köhnə dillə desək, bir kibrit çöpü belə, tapa bilməzsən. Ona görə ki, buralar hər gün təmizlənir, süpürülür, gülkarlıqlar suvarılır. Əslində, burada yaşayanlar özləri də təmizliyə qarşı çox həssasdırlar. İllərdir, bu təmizliyin arasında olanlar üçün yad davranışa yol vermək, məsələn, yerə adicə bir kağız parçası atmaq yad baxışlara tuş olmaq deməkdir ki, insafən də bunu heç kim etmir. Həm buna ehtiyac da qalmır, çünki ətrafda qoyulmuş tullantı qutuları məgər bu təmizliyin, gözəlliyin qorunmasına xidmət etmirmi?! Digər tərəfdən, bu həm də sosial bir məsuliyyətdir. Elə bu məsuliyyətdən irəli gəlir ki, burada yaşayan hər kəs – yaşlı da, cavan da, uşaq da ətrafda salınmış yaşıllıqlara, min bir əziyyətlə ərsəyə gətirilmiş gül-çiçəklərə toxunmur, əksinə, onlara baxaraq zövq almağa çalışır. Hər gün səhər oyananda bu gözəlliyə tamaşa etməyin özü belə, insanın ruhunu təzələyir, onu gün ərzində gümrah qalmağa sövq edir...

İstirahət insanın gündəlik həyatında mənəvi zərurət duyduğu təbii proseslərdən biridir. Buna görə də bir çox yaşayış binalarının qarşısında, alış-veriş mərkəzlərində, park və xiyabanlarda insanların istirahətinin nəzərə alınması həyata keçirilən arxitektura layihələrinin mühüm hissəsini təşkil edir. Bu vacib amil burada da unudulmayıb. Sıra ilə qoyulmuş skamyalar sakinlərin istirahəti üçündür. Adətən, sərin yay axşamlarında üç-bir, beş-bir bura toplaşan sakinlər heç uzağa getmədən burada günün yorğunluğunu çıxarmağa çalışırlar. Gündüzlər iş-güc başında olanlar üçün axşamlar həyat burada yenidən başlayır. Kimisi söhbətləşir, kimisi velosiped sürür, kimisi yürüşə çıxır, kimisi də balacasının əlindən tutub gəzdirir. Gündüzün gözəlliklərini axşamlar bir başqa formada, həm də daha rəngarəng təqdim edən bu "işıqlı dünya"da mobil telefonla şəkil çəkdirənlər, bir-biri ilə zarafatlaşıb deyib-gülənlər, gəzintiyə çıxanların arasından skeytbordlarla sağa-sola şütüyənlər də az olmur. Və kənardan bu mənzərəni izlədikcə düşünürsən ki, bu gözəlliyin mövcudluğu sabitlikdən, əmin-amanlıqdan qaynaqlanır... Sabitlik inkişafı, inkişaf isə sabitliyi qoruyur...

Fotoşəkildə bir yaşayış binası var... Sadə, adi bir yaşayış binası... Yenicə sabaha "açıb gözlərini" qarşılayacaq doğma sakinlərini... Nə müasir meqapolislərin bəzəyinə çevrilmiş göydələnlər kimi soyuq və təmtəraqlı, nə də adi memarlıq elementlərindən uzaq olacaq qədər tipik. Qarşısında da sakinlərin istirahəti üçün qoyulmuş skamyalar, kiçik bölmələrə ayrılmış yaşıllıqlar və sıra ilə səliqəli düzülmüş velosipedlər... Bura Avropanın yüksək sabitlik və inkişaf nümunəsi sayılan Almaniya deyil... Heç "velosipedlər ölkəsi" olan Hollandiya da deyil... Bura Naxçıvandır... Daha doğrusu, onun kiçik bir guşəsidir... Bu guşə həm də 30 ildir, blokada vəziyyətinə salınmış Naxçıvanın Özüdür!..

✍ **Səbuhi HƏSƏNOV**

### İtmişdir

Şahbuz rayonu, Şahbuzkənddə yaşayan Piriyev Vidadi Əli oğlunun adına verilmiş JN-248A saylı "Torpağın mülkiyyətə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhəri, "İstiqlal" küçəsi, bina 75, mənzil 28 ünvanında yaşayan İbrahimova Zərqələm İsa qızının adına verilən 14/781 nömrəli qeydiyyat vəsiqəsi itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Gülcamal Tahirova

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 666